27 yanvar 2011-ci il

səs

# "Vətən dili"nin I hissəsinin yenidən işlənilməsində Firidun bəy Köçərlinin xidmətləri olmuşdur

Firidun bəy Əhməd bəy oğlu Köçərli 1862-ci ilin bu günü Şuşada anadan olmuşdur. O, 1876-cı ildə Şuşadakı rus məktəbinə daxil olur. 1878-ci ildə Aleksey Çernyayevski Zaqafqaziya Müəllimlər Seminariyasına tələbə toplamaq vəzifəsi ilə Şuşaya gəlir və bu yolla Firidun bəy öz taleyini seminariya ilə bağlamış olur. 1879-1885-ci illər ərzində o, burada təhsil alır, 1895-1918-ci illər ərzində dərs deyir. 1885-ci ildə qısa müddət Firidun bəy İrəvan gimnaziyasında da dərs deyir. 1910-cu ildə Qori seminariyasının Azərbaycan şöbəsinin müvəqqəti təlimatçısı təyin olunur, 1918-1920-ci illərdə onun təşəbbüsü ilə həmin seminariyanın əsasında açılmış Qazax Müəllimlər Seminariyasının müdiri işləmişdir. Firidun bəy Köçərli Gəncə üsyanı yatırıldıqdan sonra XI ordunun xüsusi şöbəsi tərəfindən 1920-ci ildə, 58 yaşında güllələnərək dünyasını dəyişir.